BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Sosial-siyasi elmlər seriyası* 2005

# SAHİBKARLIQ FƏALİYYƏTİ SAHİBKARLIQ HÜQUQUNUN PREDMETİ KİMİ

E.A.XƏLƏFOV

*Məqalədə qeyd edilmişdir ki, sahibkarlıq hüququnun (təsərrüfat hüququnun) məzmunu, ilk növbədə, onun yönəldiyi hüquqi tənzimləmə obyekti ilə müəyyən olunur. Bununla əlaqədar məqalədə belə obyekt qismində sahibkarlıq fəaliyyəti və onun həyata keçirilməsi prosesində təşəkkül tapan hüquq münasibətlərinin çıxış etməsi qeyd olunmuş, həmçinin «Sahibkarlıq fəaliyyəti» anlayışının mahiyyəti üzrə, əlamətləri təhlil edilərək digər yaxın anlayışlar arasında onun yeri müəyyən edilmişdir.*

Bazar münasibətlərinə keçid, Azərbaycan Respublikasında malların, işlərin, xidmətlərin azad bazarının formalaşması şəraitində iqtisadi islahatların həyata keçirilməsi, ilk növbədə, sahibkarlıq fəaliyyəti sahəsi ilə sıx surətdə bağlıdır. Bu şəraitdə sahibkarlar ölkə iqtisadiyyatında əsas simaya çevrilirlər. Məlum olduğu kimi, islahat aparılan cəmiyyətdə hüquq zamanla ayaqlaşmalıdır, bununla əlaqədar bazarın, sahibkarların əmlak münasibətlərinin dövlət tənziminin yeni forma və metodlarını təsbit edən qanunvericilik xeyli inkişaf etmişdir.

Qeyd etmək vacibdir ki, sahibkarlıq hüququnun (təsərrüfat hüququnun) məzmunu, ilk növbədə, onun yönəldiyi hüquqi tənzimləmə obyekti ilə müəyyən olunur. Belə obyekt qismində sahibkarlıq fəaliyyəti və onun həyata keçirilməsi prosesində təşəkkül tapan hüquq münasibətləri çıxış edir. «Sahibkarlıq fəaliyyəti» anlayışının mahiyyəti üzrə təhlili digər yaxın anlayışlar arasında onun yerinin müəyyən edilməsini nəzərdə tutur.

S.E.Jilinskinin fikrincə, sahibkarlıq çoxəsrlik təkamül nəticəsində inkişaf etmiş ölkələrin iqtisadiyyatında bərqərar olmuş təsərrüfatçılıq üsuludur.[1] V.Y.Qorfinkel və b. belə hesab edirlər ki, sahibkarlıq dedikdə ayrı-ayrı şəxslərin, sahibkarların və ya təşkilatların maraqlı şəxslərin və ya təşkilatların, müəssisələrin qarşılıqlı faydası əsasında başqa malların, yaxud pulun qarşılığında həyata keçirdikləri istehsal, xidmət göstərmə, yaxud malları alıb satma üzrə fəaliyyət başa düşülməlidir.[2]

---

[1] С.Э.Жилинский Предпринимательское право (правовая основа предпринимательской деятельности) М., 1999 г., с.37.

[2] В.Я.Горфинкель, Г.Б. Поляк, В.А.Швандар. Предпринимательсво. М. 1999 г., с.11.

Azərbaycan Respublикasının Konstitusiyasının 59-cu «Azad sahibкarlıq hüququ» maddəsində hər кəsin azad sahibкarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul olmaq hüququnu bəyan etmişdir. Beləliкlə, Azərbaycan Respublикasının Konstitusiyası «sahibкarlıq fəaliyyəti» və «iqtisadi fəaliyyət» anlayışlarını fərqləndirir. Bununla əlaqədar belə hesab ediriк кi, sahibкarlıq fəaliyyəti iqtisadi fəaliyyətin bir növüdür, yəni sahibкarlıq yalnız iqtisadi fəaliyyət çərçivəsində həyata кeçirilə bilər. Müntəzəm surətdə hansısa gəlir əldə edilməsinə yönəlmiş, laкin iqtisadi xaraкter daşıyan fəaliyyət sahibкarlıq fəaliyyəti кimi nəzərdən кeçirilə bilməz. Eyni zamanda, iqtisadi fəaliyyətin istənilən növü sahibкarlıq fəaliyyəti deyildir. Onu da qeyd etməк lazımdır кi, Azərbaycan Respublикasının sahibкarlıq sahəsini tənzimləyən qanunvericiliyi sahibкarlıq fəaliyyəti, iqtisadi fəaliyyət anlayışlarından başqa, təsərrüfat fəaliyyəti anlayışını da fərqləndirir.

Qanunvericiliyin təhlili göstərir кi, «təsərrüfat fəaliyyəti» termini, əslində, bu gün «sahibкarlıq fəaliyyəti» anlayışı ilə eyniyyət təşкil edir. Məsələn, «Xarici investisiyaların müdafiəsi haqqında» Qanunun 2-ci maddəsinin «b» bəndinin, 41-ci maddəsinin, «İcarə haqqında» Qanunun 11-ci, 18-ci maddələrinin, «Antiinhisar fəaliyyəti haqqında» Qanunun 2-ci maddəsinin, «İnvestisiya fəaliyyəti haqqında» Qanunun 6-cı maddəsinin, «Haqsız rəqabət haqqında» Qanunun 3-cü, 4-cü, 5-ci, 6-cı maddələrinin təhlili zamanı bu eyniyyəti müəyyən etməк olar. Anlayışların təhlilinin aparılması zamanı qanunvericiliyin tələbləri rəhbər tutulmalıdır.Belə кi, qüvvədə olan qanunvericiliк, (Azərbaycan Respublикası Mülкi Məcəlləsinin 13-cü maddəsi) sahibкarlıq fəaliyyətini şəxsin müstəqil surətdə həyata кeçirdiyi, əsas məqsədi əmlaк istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyət кimi nəzərdən кeçirilir.

O.M.Oleyniкin belə bir fiкri ilə razılaşmaq olar кi, sahibкarlıq fəaliyyətinin leqal anlayışına müraciət araşdırma məqsədi ilə yanaşı, həm də tənzimləmə məqsədi güdür.

Müəyyən tənzimləyici potensialı ehtiva edən anlayış müəyyən hüquqi nəticələr doğurmalıdır:

-sahibкarlıq fəaliyyətinin anlayışı onun həyata кeçirilməsi prosesinə verilən tələblər üçün əsasları yaradır;

-məhz sahibкarlıq fəaliyyətinə verilən tələblərə riayət olunmaması məsuliyyət tədbirlərini şərtləndirir;

-hüququn digər sahələrində əкsini tapan hüquqi nəticələr sahibкarlıq fəaliyyətinin leqal anlayışına müvafiq surətdə qurulur.[3]

Sahibкarlıq fəaliyyəti кimi bir кateqoriyanın fərqləndirilməsi və təsviri zərurəti qanunvericiliк nəzərə alınmaqla sahibкarlıq

---

[3] О.М.Олейник Предпринимательское (хозяйственное) право М.,1999 с.17-18.

fəaliyyətinin əlamətlərinin müəyyən edilməsi zərurətini şərtləndirir. Bu zaman əlamətlər sisteminin qurulmasının təhlili sahibkarlıq fəaliyyətinin qanunda nəzərdə tutulub-tutulmamasından asılı olmayaraq, təcrübədə real əhəmiyyət kəsb edən spesifik xüsusiyyətlərinin çox hissəsini müəyyən etməyə imkan verir.

1. Sahibkarlıq fəaliyyəti, yəni subyektin olbyektə yönəlmiş müəyyən fəallığı olmalıdır. Fəaliyyətin xüsusiyyətləri müəyyən əlamətlər mövcud olduqda təzahür edir ki, həmin əlamətlər sırasına sahibkarlıq fəaliyyətinin sistemliliyi, daimiliyi, məqsədyönlülüyü aid edilə bilər.

2. Sahibkarlıq fəaliyyəti müstəqilliklə xarakterizə olunur. Şərti surətdə sahibkarlığın əmlak və təşkilati müstəqilliyini fərqləndirmək olar. Əmlak müstəqilliyi sahibkarın fəaliyyət üçün iqtisadi baza kimi ayrıca əmlaka malik olması ilə müəyyən edilir. Təşkilati müstəqillik sahibkarlıq fəaliyyəti prosesində sahibkarlıqla məşğul olmağa başlamaq qərarı, fəaliyyət növünün, təşkilati-hüquqi formanın, təsisçilər dairəsinin seçilməsi və s. daxil olmaqla, müstəqil qərarların qəbul edilməsi imkanıdır.

3. Sahibkarlıq fəaliyyəti risklə bağlıdır. Sahibkarlıq bu baxımdan inzibati-planlı iqtisadiyyat dövrünün təsərrüfat fəaliyyətindən köklü surətdə fərqlənir.

Zərərin azaldılmasına sahibkarlıq riskinin, yəni kontragentlərin öhdəlikləri pozması, yaxud sahibkardan asılı olmayan səbəblərdən bu fəaliyyətin şərtlərinin dəyişdirilməsi riskinin, o cümlədən gözlənilən gəlirlərin alınmaması riskinin sığortalanmasına dair müqaviləsinin bağlanması yolu ilə nail olmaq mümkündür. Hal-hazırda bu əlamət sahibkarlıq fəaliyyətinin AR MM-in 13-cü maddəsində verilmiş anlayışından çıxarılmışdır. Fikrimizcə, o, sahibkarlıq fəaliyyəti ilə digər iqtisadi fəaliyyət arasında sərhədi müəyyən etməyə imkan verirdi.

4. Sahibkarlıq fəaliyyətinin leqal anlayışda öz əksini tapmamış əlaməti qismində onun peşəkarlıq kimi xüsusiyyətini fərqləndirmək olar. Postsovet hüquq ədəbiyyatında peşəkar fəaliyyət anlayışı elmi anlayışlar dövriyyəsinə A.E.Jalinski tərəfindən peşəkar hüquq fəaliyyətinə, yaxud peşəkar hüquqşünas fəaliyyətinə tətbiqən daxil edilmişdir. Onun fikrincə, «istənilən fəaliyyət növü diletant səviyyədə, təsadüfi, biliyi və bacarığı aşağı olan adamlar tərəfindən deyil, məhz peşəkar səviyyədə həyata keçirilməlidir... Peşəkarlıq əlaməti fəaliyyətin qəbul edilmiş metodikalar üzrə həyata keçirilməsini; prosesə və nəticələrə verilən tələblərə riayət olunmasını; fəaliyyətin əvəzli olmasını; subyektin həyata keçirilən işə təsirini əks etdirir».[4]

Digər alim V.S.Martemyanovun fikrincə, «Yeni hüquqi tənzimləmə şəraitində hüquq münasibətlərinin təsərrüfat hüquq münasibətlərinə aidliyini müəyyən edən element qismində bazar üçün malların (işlərin, xidmətlərin) istehsalı üzrə peşəkar fəaliyyət

---

[4] Жалинский А.Э. Профессиональная деятельность юриста. М., 1997. С.4-10.

çıxış edir. Məhz istənilən subyektin özünəməxsus əmlak əsasında istehsal fəaliyyətinə daxil olması ilə əlaqədar onun aparılmasının gedişində münasibətlərin tənzimlənməsini təsərrüfat hüququ əhatə edir».[5]

Sahibkarlıq fəaliyyətinin peşəkarlığı aşağıdakı komponentlərdən ibarətdir:

-Sahibkarlıq fəaliyyətini müəyyən ixtisasa və məlumata malik adamlar həyata keçirir. Bununla əlaqədar qeyd etmək lazımdır ki, son vaxtlar qanunvericilik bank, auditor, sığorta fəaliyyəti işçilərinin müvafiq ixtisaslılığı ilə bağlı tələbləri daha da gücləndirir;

-sahibkarlıq fəaliyyətinin qanunla müəyyən olunmuş qaydalar və metodikalar üzrə həyata keçirilməsi;

-sahibkarlıq fəaliyyətinin qeydiyyatı, lisenziyalaşdırılması, sertifikatlaşdırılması və s. ilə bağlı ona qarşı irəli sürülən tələblər;

-sahibkarlıq fəaliyyətinə belə nəzarəti həyata keçirmək səlahiyyətinə malik dövlət orqanlarının nəzarəti;

-sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün birbaşa və dolayı dövlət təminatlarının mövcudluğu.

5. Sahibkarlıq fəaliyyəti müntəzəm mənfəət əldə olunmasına yönəlmişdir. Mənfəət əldə olunması sahibkarın əsas məqsədi olaraq, onun fəaliyyətinə kommersiya xarakteri verir, hətta onun həyata keçirilməsi nəticəsində sahibkarın mənfəət əldə etməyib, zərərə uğraması halında belə bu fəaliyyət özünün kommersiya xarakterini itirmir. Bununla yanaşı, mənfəətin əldə olunması əvvəlcədən məqsəd kimi qarşıya qoyulmadıqda bu fəaliyyəti sahibkarlıq fəaliyyəti adlandırmaq olmaz, çünki o, kommersiya xarakteri daşımır.

6. Anlayışa müvafiq surətdə subyektlər mənfəəti əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən əldə edirlər.

7. Sahibkarın öz əmlakı ilə müstəqil surətdə məsuliyyət daşıması da sahibkarlıq fəaliyyətinin leqal anlayışına daxil olmamış əlamətidir.

8. Sahibkarlıq fəaliyyəti qanunla müəyyən olunmuş qaydada bu keyfiyyətdə qeydiyyata alınmış şəxslər tərəfindən həyata keçirilir. Bu, formal əlamətdir, yəni bu fəaliyyəti leqallaşdıran, ona qanuni status verən əlamətdir. Onun mövcud olmaması sahibkarlıq fəaliyyətinin itirilməsinə gətirib çıxarmır, lakin həmin fəaliyyəti qanunsuz edir.

Beləliklə, sahibkarlıq fəaliyyətinin leqal anlayışının həmin anlayışda əksini tapmamış əlamətlərlə birlikdə öyrənilməsi qarşımızda sahibkarlıq, iqtisadi, əmək fəaliyyətini müqayisə etməyə, onların oxşar və fərqli cəhətlərini müəyyən etməyə imkan verən tam mənzərə yaradır.

---

[5] Мартемьянов В.С. Хозяйственное право. М., 1994. Т.1.С.3.

## ПРЕДПРИНИМАТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ КАК ПРЕДМЕТ ПРЕДПРИНИМАТЕЛЬСКОГО ПРАВА

**Э.А.ХАЛАФОВ**

**РЕЗЮМЕ**

В статье отмечается что, содержание предпринимательского (хозяйственного) права определяется, прежде всего объектом его исследования. В связи с этим подчеркивается, что объектом в данном случае выступает предпринимательская деятельность, а также выражающееся в процессе его осуществления правоотношения. В статье исследуются сущность понятия «Предпринимательская деятельность», раскрываются его признаки, также определяется его соотношение и место со схожими понятиями.